# «Gömrük orqanlarında xidmət haqqında Əsasnamə»də, «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə»də, «Feldyeger rabitəsi orqanında xidmət keçmə haqqında Əsasnamə»də, «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanununda və «Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə»də dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli, 768-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 1, maddə 12; 2001-ci il, № 12, maddələr 731, 736; 2004-cü il, № 2, maddə 57; 2005-ci il, № 4, maddə 274, № 7, maddə 590; 2006-cı il, № 11, maddə 926; 2007-ci il, № 1, maddə 1, № 8, maddə 756, № 11, maddə 1078; 2008-ci il, № 3, maddə 155, № 8, maddələr 694, 696; 2009-cu il, № 6, maddələr 399, 406) ilə təsdiq edilmiş «Gömrük orqanlarında xidmət haqqında Əsasnamə»nin 55-ci maddəsi çıxarılsın.

II. Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli, 168-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 453, № 12, maddə 731; 2004-cü il, № 10, maddə 760; 2005-ci il, № 4, maddə 280, № 10, maddələr 871, 872; 2006-cı il, № 10, maddə 846, № 11, maddə 927; 2007-ci il, № 8, maddə 756, № 11, maddələr 1073, 1081; 2008-ci il, № 3, maddə 155, № 10, maddə 882; 2009-cu il, № 2, maddə 48, № 6, maddə 399) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə»nin 35-ci maddəsi çıxarılsın.

III. Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli, 682-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 7, maddə 514; 2006-cı il, № 3, maddə 221, № 11, maddə 927; 2007-ci il, № 8, maddə 756; 2008-ci il, № 2 maddə 48, № 3, maddə 155, № 8, maddələr 694, 710) ilə təsdiq edilmiş «Feldyeger rabitəsi orqanında xidmət keçmə haqqında Əsasnamə»nin 48-ci maddəsi çıxarılsın.

IV. «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 7, maddə 586; 2007-ci il, № 1, maddə 1, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008-ci il, № 3, maddə 155, № 6, maddə 481, № 8, maddələr 694, 710; 2009-cu il, № 6, maddə 399) 14.5-ci maddəsi çıxarılsın.

V. Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli, 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə»nin 41-ci maddəsi çıxarılsın.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 5 mart 2010-cu il***

***№ 969-IIIQD***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (16 aprel 2010-cu il, № 80) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 aprel 2010-cu il, № 4 (154), maddə 273) («VneshExpertService» LLC).***

© *«VneshExpertService» LLC*